**AZƏRBAYCAN RESPUBLİKASI**
**BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYONU İCRA HAKİMİYYƏTİNİN BAŞÇISININ**

**Ə M R İ**

№ 28 «12» 04 2019 cu il

**Binəqədi Rayon İcra Hakimiyyəti tərəfindən Binəqədi Rayon Mənzil Kommunal Təsərrüfat Birliyi üçün istehsalat və məişət tullantılarının yığımı, daşınması və ərazinin təmizlənməsinə görə texnikaların açıq tender üsulu ilə satın alınmasının keçirilməsi məqsədilə tender komissiyasının yaradılması haqqında**

Azərbaycan Respublikası Dövlət Neft Şirkəti tərəfindən ayrılmış vəsaitə uyğun olaraq texnikaların alınması məqsədilə “Nəqliyyat vasitələri” və “ Xüsusi texnika” nın satın alınmasına ciddi tələbat yarandığını nəzərə alaraq, “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun 22 və 23-cü maddələrinin və “Yerli icra hakimiyyətləri haqqında Əsasnamə” nin 6.8-ci bəndini rəhbər tutaraq,

**Ə M R  E D İ R Ə M:**

1. Binəqədi Rayon İcra Hakimiyyətinin Binəqədi Rayon Mənzil Kommunal Təsərrüfat Birliyi üçün “ Nəqliyyat vasitələri ” və “ Xüsusi texnika” nın açıq tender üsulu ilə satın alınmasının təşkil edilməsi məqsədilə tender komissiyasının tərkibi aşağıdakı kimi təsdiq edilsin:

**Komissiyanın sədri**

- İlqar Süleymanov - Binəqədi Rayon İcra Hakimiyyəti başçısının birinci müavini

**Komissiyanın üzvləri**

- Yunis Hüseynov - Hüquq şöbəsinin müdiri,
- Hicran Dadaşova - Sektor müdiri-baş mühasib,
- Yəhya Əliyev - Sosial – iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri,
- Azər Kərimov - Rayon təsərrüfatı şöbəsinin müdiri,
- Elmin Zamanov - Binəqədi Rayon Mənzil Kommunal Təsərrüfat Birliyinin rəisi,
- Kamil Bayramov - Binəqədi Rayon Mənzil Kommunal Təsərrüfat Birliyinin Nəqliyyat sahəsinin rəisi.

2. Yaradılmış komissiyanın üzvlərinə tapşırılsın ki, öz fəaliyyətlərində "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə ciddi riayət etsinlər.

3. Əmrin icrasına nəzarət Binəqədi Rayon İcra Hakimiyyəti başçısının birinci müavini İlqar Süleymanova həvalə edilsin.

**Elxan Allahverdiyev**